*UOT 371*

***Pərviz Rəşad oğlu Allahverdiyev***
*Naxçıvan Dövlət Universitetinin baş müəllimi*
*https://orcid.org/0009-0000-1962-8824*
https://doi.org/10.69682/azrt.2024.91(1).99-103

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN ORDUSUNUN QAZANDIĞI NAİLİYYƏTLƏRİN MƏKTƏBLİLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ ROLU

***Парвиз Рашад оглу Аллахвердиев***
*старший преподаватель Нахчыванского Государственного Университета*

# РОЛЬ ДОСТИЖЕНИЙ АЗЕРБАЙДЖАНСКОЙ АРМИИ ЗА ГОДЫ НЕЗАВИСИМОСТИ В ВОЕННО-ПАТРИОТИЧЕСКОМ ВОСПИТАНИИ ШКОЛЬНИКОВ

***Parviz Rashad Allahverdiev***
*senior lecturer at Nakhchivan State University*

# THE ROLE OF THE ACHIEVEMENTS OF THE AZERBAIJAN ARMY DURING THE YEARS OF INDEPENDENCE IN THE MILITARY-PATRIOTIC EDUCATION OF SCHOOLCHILDRE

**Xülasə.** Azərbaycan Ordusunun tarixi nailiyyətləri müstəqillik illərində məktəblilər də, gənclər də - hərbi vətənpərvərlik tərbiyəsi hislərini formalaşdırmış oldu. Ordumuzun müstəqillik illərində qazandığı nailiyyətlər Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin idarə etdiyi ordu birləşmələri və rəhbərlik etdikləri əyilməz xalq, millət sayəsində həyata keçirilməklə vətənpərvərlik hisslərinin nəsildən-nəslə ötürülməsinə nail ola bildik. Müstəqillik illərində ordumuzun nailiyyətləri bizim nə qədər qüdrətli dövlət, nə qədər hərbi bilik, bacarığa və fiziki cəhətdən möhkəm dəmir yumruğa malik olmasını yeni nəslimizin hərbi vətənpərvərlik mövzularında öz əksini tapmaqdadır. Əsas olaraq, Birinci Qarabağ, İkinci Qarabağ, Aprel döyüşləri və digər tarixi nailiyyətlərin hərbi vətənpərvərlik tərbiyəsindəki yeri və rolu əvəz olunmazdır.
***Açar sözlər:*** *Azərbaycan, ordu, nailiyyət, müstəqillik, Heydər Əliyev, İlham Əliyev*

**Резюме.** Исторические достижения Азербайджанской Армии в годы независимости сформировали чувства военного патриотизма как у школьников, так и у молодежи. Достижения нашей армии за годы независимости были реализованы благодаря армейским формированиям, которыми руководили великий лидер Гейдар Алиев и Президент Азербайджанской Республики, Главнокомандующий Вооруженными Силами господин Ильхам Алиев, благодаря несгибаемому народу и нации, которую они возглавляют, мы смогли передать чувства патриотизма из поколения в поколение. Достижения нашей армии за годы независимости, показали, насколько мы мощное государство, сколько у нас военных знаний, умений и физически крепкого железного кулака. Все это отражено в военном патриотизме нашего нового поколения. В статье отмечаются место и роль Первой Карабахской, Второй Карабахской, апрельских сражений и других исторических достижений в воспитании военного патриотизма.
***Ключевые слова:*** *Азербайджан, армия, достижения, независимость, Гейдар Алиев, Ильхам Алиев*

**Summary.** The historical achievements of the Azerbaijan Army in the years of independence formed the feelings of military patriotism in both students and young people. The achievements of our army during the years of independence were realized thanks to the army formations managed by the great leader Haydar Aliyev and the President of the Republic of Azerbaijan, the Commander-in-Chief of the Armed Forces, Mr.

Ilham Aliyev, and thanks to the inflexible people and nation they lead, we were able to pass on the feelings of patriotism to next generations. The achievements of our army in the years of independence, how powerful a state we are, how much military knowledge, skills and physically strong iron fist we have, are reflected in the military patriotism of our new generation. Basically, the place and role of the First Karabakh, Second Karabakh, April battles and other historical achievements in the education of military patriotism are irreplaceable.

***Keywords:*** *Azerbaijan, army, achievement, independence, Heydar Aliyev, Ilham Aliyev*

Azərbaycanın tarixinə nəzər saldıqda görürük ki, onun keçmişində həm dövlətçiliyin bünövrəsi möhkəm olub, həm də şanlı ordusu, tarix boyu qazanılan zəfərlərlə əhatələnmişdir. Necə ki, XX əsrin əvvəllərində ilk demokratik cümhuriyyətin qurulması və bunun şərqdə ilk dəfə qurulması, dünya tarixinin yaddaşlarında hər zaman qalacaqdır. O dövrün qısa sürməsinə baxmayaraq Azərbaycan üçün böyük dövlət, ordu, iqtisadiyyat potensialın yaramasına şərait yaradılmışdır. Azərbaycan ordusunun təməli o dövrlərdə qurulsa da zaman, coğrafi şərait, yadellilərin bu torpaqlara göz qoymaqları, təbii sərvətlər, qonşu ölkələrin paxıllığı imkan vermədi uzun ömürlü olsun yaradılan cümhuriyyət. Amma buna baxmayaraq Azərbaycanı xilaskarı olan Ulu öndər Heydər Əliyev bunların hamısını yaşatdı bizlərə. Azərbaycan Ordusunun nailiyyətləri təkcə döyüş meydanında zəfər çalması ilə bitmir. Zəfərə qədər olan yolu sağlam, mükəmməl olması vacib tərəflərdən hesab olunmalıdır. Onun üçün Heydər Əliyevin Azərbaycanda birinci dəfə hakimiyyətə gəlişi ilə XX əsrin 70-ci illərində Azərbaycan ordusunda dərin izlər buraxan, yaddaşlardan silinməyən zəfərlərin təməlini qoymuşdu. Belə ki, o ilk əvvəl Azərbaycanın tarixini işıqlandırdı və cümhuriyyət dövrünün generallarından olan Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski kimi və digərlərini hansı ki, cümhuriyyət dövründə hərb nazir işləmiş, komandan olmuş kimi şəxsləri ictimaiyyətə, yetişən yeni nəslə tanıtdı. (Süleymanov 2019:516)

Müstəqillik illərində Azərbaycan Ordusunun tarixi zəfər çalmasında, mənfur düşmən üzərində qələbə çalmasında o zaman ki, dövrdə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan C. Naxçıvanski adına hərb təmayüllü internat məktəbi olmuşdur. Gələcəyi görən Ulu sərkərdə bu məktəbi yaratmaqla Azərbaycanın tarixinə qızıl həriflərlə zəfər yazdı. Baxmayaraq ki, xarici qüvvələr, sovet birliyi buna icazə vermək istəmirdi, amma Heydər Əliyevin qətiyyətli fikri onu məqsədindən döndərmədi. Eyni zamanda hərbi təşkilati işlərin görülməsini ön plana çəkdi. Azərbaycan Ordusunun müstəqillik illərində qazandığı nailiyyətləri Ulu öndər Heydər Əliyevin zamanında yaratdığı hərbi təşkilati formalara görə belə qruplaşdırmaq olar:

– C. Naxçıvanski adına hərb təmayüllü internat məktəbinin əsasını qoydu;

– Orduda fərariliyin qarşısını birdəfəlik aldı;

– Nizami ordu formalaşdırdı;

– Zabit kadrlarının yetişdirilməsi üçün ali hərbi məktəblər açdı;

– Kursantların Rusiyanın bir çox şəhərlərində güzəştli hərbi təhsil almasına şərait yaratdı;

– Azərbaycan Ordusunu dünyaya tanıtdı;

– Ermənistan ilə atəşkəs imzaladı;

– Horadiz əməliyyatında Fizulinin 20 kəndini ermənilərdən azad etdi;

Bütün bu sadaladıqlarımız orta ümumtəhsil və ali təhsil müəssisələrində məktəbin pedaqoji kollektivi, hərbi rəhbər, tarix müəllimi tərəfindən istər dərslərdə, istər sinifdənxaric, dərsdənkənar məşğələlərdə istərsə də təlim və tədbirlər zamanı yeni və gənc nəslimizə aşılanmaqla onlarda vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyələrinin, eyni zamanda vətəndaşlıq tərbiyələrinin formalaşmasında, inkişaf etməsində həlledici rol oynamaqdadır.

Ulu öndər H. Əliyevin gənclər ilə görüşündə əhalinin Vətəni müdafiəyə hazır olması istiqamətindəki çıxışlarında qeyd edir ki , "xalqın əli ilə yaradılan hər nə varsa etibarlı surətdə müdafiə olunmalıdır. Bu cəhətdən də Azərbaycan dövlətini, onun Silahlı Qüvvələrini möhkəmləndirmək, Vətənimizin müdafiə qabiliyyətini hər vasitə ilə yüksəltmək deməkdir. Bu mənada dərslikdə, son illər ölkəmizin Ordu Quruculuğunda, adamların münasibətlərində xalqımızın keçmişinə ehtiram, qəhrəmanlıq tarixinə hörmət hissi tərbiyə etmək məqsədi ilə orta təhsil müəssisələrində yaradılmış Azərbaycan Or-

dusunun nailiyyətlərini əks etdirən muzeylərdən, guşələrdən, stendlərdən və Azərbaycan Ordusunun nailiyyətlərindən əyani nümunələr verilmiş, bunların gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işindəki böyük rolu göstərilmiş və onların təşkili haqqında tövsiyələr verilmişdir. Heç kəsə sirr deyildir ki, uzun illər imperiya tərkibində olan Azərbaycan Dövləti müxtəlif yollar və vasitələrlə özünü dərk etmək, torpağını, elini, obasını tanımaq, onu, bu yurdun övladına sevdirmək hissindən və imkanlarından məhrum edilmişdi. Bu səbəbdəndir ki, istər yaşlı, istərsə də cavan nəslin nümayəndələri Rusiya başda olmaqla digər ölkələrin tarixini, coğrafiyasını və etnoqrafiyasını yaxşı bildiyi, o dillərə, onların adət və ənənələrinə yaxından bələd olduqları halda öz millətindən, elindən uzaq düşmüşdülər". (Əliyev 2005: 412)

Azərbaycan müstəqillik qazandıqdan sonra başına gələn, min bir müsibət içərisində olmasına baxmayaraq ermənilərin bu torpaqlara göz dikmələri ilə başladılan birinci Qarabağ müharibəsi bizim xalqımızın və sayca az olan ordu birləşmələrimizin qəhrəmanlıqlarını əks etdirdi. Baxmayaraq ki, başsız qalan ölkənin iyirmi faiz torpaqları mənfur düşmən tərəfindən işğal olundu, amma bu müharibədə erməni silahlı birləşmələrinə qarşı Azərbaycan xalqı, Azərbaycan Ordusunun hərbi qulluqçuları, könüllü dəstələri nə qədər dirənmiş olduqları yaddaşlardan heç vaxt silinməyəcək.

Azərbaycanın tanınmış elm adamları, müəllimləri öz məqalə və yazılarında əks etdirdikləri birinci Qarabağ döyüşlərinin acı ifadələrini, zamanı-zaman müşahidə və təhlillər apararaq ortaya çıxmış oldu ki, bizim məktəblilərimiz, tələbələrimiz bu acı xatirəni yaşayaraq vətənpərvərlik ruhu içərisində böyüdülər, bərkidilər və zaman gəldiyində o qisasın alınmasını səbirsizliklə gözləyərək gücləndilər.

Terrorçu erməni silahlı birləşmələrindən, quldur dəstələrindən ibarət canlı qüvvəsinin 20 Yanvar Bakı küçələrinə soxulmaları və azərbaycanlıların soy kökünə qarşı soy qırım törətmələri zamanı da Azərbaycan xalqının əliyalın küçələrə çıxması tankların, topların, tüfənglərin qarşısına keçərək "Rədd olsun sovet ordusu yaşasın Azərbaycan!!!" deyə erməniləri şəhərdən qovub çıxarmaları bir qəhrəmanlıq, bir əzmkarlıq tələb edirdi.

Bu qisaslara ürəyi dözməyən Azərbaycan vətənpərvərləri, oğulları günbəgün böyüyür, vətənpərvərlik ruhunda tərbiyə alaraq yetişirdilər.

Zaman çox keçmədi Ulu öndər Heydər Əliyev siyasətini Azərbaycan Respublikasında davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğunun inkişafına xüsusi fikir verir, bu sahədə lazımı addımların atmasını özünə borc bilirdi. Qarşıya qoyulan məqsədlərdən ən başlıcası işğal altında olan torpaqların düşməndən azad edilməsi və bir milyona yaxın məcburi köçkünlərimizi öz yurd yuvasına qaytarmasını təmin etmək idi.

Mənfur düşmənə sülh təklif olunsa da dəfələrlə o bu razılaşmalardan boyun qaçırır, atəşkəsi pozur, dinc əhaliyə təxribatlar törədərək müharibə vəziyyətinə gətirib çıxarırdı. Amma Azərbaycan Silahlı Qüvvələrinin giziri Mübariz İbrahimovun onlara verdiyi dərsi sanki unudurdular. Vətən eşq ilə yaşayan, 20 Yanvar soyqırımı, Xocalı faciəsi, birinci Qarabağ müharibəsində şəhid olan dost və qardaşlarının qisasını almaq üçün düşən postuna hücum edərək, səhərə qədər tək başına 60 nəfərdən ibarət erməni taborunu məhv edərək qəhrəmancasına şəhid oldu.

Bu gün yetişən yeni və gənc nəslin hamısı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovdan örnək götürərək, hərbi vətənpərvərlik hisləri altında tərbiyə olunurlar. Orta və ali təhsil müəssisələrində yaradılan dərsdənkənar, sinifdənxaric işlər, eyni zamanda təlim prosesində yaradılan dərs metodundan istifadə etməklə hərbi vətənpərvərlik səpkisində bir çox hisslərə sahib olmuş oluruq ki, bunları aşağıdakı kimi qeyd etmək olar:

– Mübariz İbrahimovun məzarını ziyarət etməklə;

– Mübariz İbrahimovun keçdiyi hərbi xidmət yolu, döyüş yolu, şəhidliyə ucalması haqqında məruzələr, söhbətlər, çıxışlar təşkil etməklə;

– Ailəsinə yaxından kömək göstərməklə;

– Mübariz İbrahimovun haqqında inşalar, məqalələr yazmaqla;

Azərbaycanda ordu quruculuğunu layiqincə inkişaf etdirən Ali Baş Komandan cənab İlham Əliyevin Ulu öndər Heydər Əliyevdən sonrakı illərdə sərkərdəlik etdiyi və Azərbaycan Ordusunun qazandığı nailiyyətləri orta və ali təhsil müəssisələrində yetişən yeni və gənc nəs-

lə aşılanmaqla, onlarda hərbi vətənpərvərlik tərbiyəsi hissləri yüksəlmiş olar. İlham Əliyevin apardığı ordu siyasəti artıq bütün inkişaf etmiş ölkələri həm narahat edir, həm də maraqlarına səbəb olur. Günü-gündən güclənən Azərbaycan Ordusu yeni nailiyyətlərin əldə olunması üçün, torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın əmrini vətənpərvərlik ruhunda bəslənə-bəslənə gözləyirdilər. Və o tarixi anların çox uzaqda olmadığını hər kəs bilirdi. Bilirdik ki, hərbi vətənpərvərlik tərbiyəsi almış Azərbaycan əsgəri döyüş meydanında öz rəşadətini, öz şücaətini sərgiləməklə 30 il işğala son qoyacaq.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun nailiyyətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

– 2016-cı il Aprel döyüşləri Lələ Təpə yüksəkliyinin azad edilməsi;

– 2018-ci il Günnüt əməliyyatı 11min hektarlıq ərazinin azad edilməsi;

– 2020-ci il iyul ayı Tovuz döyüşləri General-Mayor Polad Həşimovun qəhrəmancasına şəhid olması;

– 2020-ci il 27 sentyabr 44 günlük Vətən müharibəsi;

– 2020-ci il 10 noyabr düşmən üzərində tarixi qələbə (Zəfər bayram);

– 2020-ci il 10 dekabr Bakıda qələbə paradının keçirilməsi;

– 2023-cü il 19-20 sentyabr anti terror əməliyyatı;

– 2023-cu il Xankəndi, Əsgəran, Xocalı, Xocavəndin azad edilməsi və Xankəndində zəfər paradının keçirilməsi;

– Qərbi Azərbaycana qayıdış və Zəngəzur dəhlizinin sülh danışıq vasitəsi ilə həlli məsələsi”.

Sadalanan bu qələbələrdən, nailiyyətlərdən ruhlanan Azərbaycanın hər bir yeni və gənc nəsli qarşısına bir məqsəd qoymuş olur, heç vaxt düşmənə boyun əyməmək, torpaqlarımızın, vətənimizin keşiyində möhkəm dayanmaq, “Vətənə məhəbbət düşmənə nifrət” sözü altında bayrağımızı ucalarda dalğalandıraq. Bu nailiyyətlərdən tərbiyə alan hansı vətəndaş, hansı məktəbli Polad Həşimov, İlqar Mirzəyev, Rahib Babayev, Qüreşli Firuz, Rzayev Zülfü, Cəmiyev Aşur və üç mindən çox digər qəhrəman şəhid və qazilərimizə hansı şagird oxşamaq istəməz.

İstər Ulu öndər Heydər Əliyevin, istərsə də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun qazandığı nailiyyətlər əvəzolunmaz, unudulmazdır. Bu nailiyyətlərdən bəhrələnən Azərbaycan məktəblisi daim vətənpərvərlik hisləri altında tərbiyə alaraq böyüyür. Heç vaxt unutmaq olmaz ki, birinci Qarabağ, ikinci Qarabağ, Aprel döyüşlərində qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlmiş, qazi olmuş hərbi qulluqçularımız bizim tərbiyə ocağımızdır, yetişən gənc nəslin hərbi vətənpərvərlik məktəbidir. Çünki Azərbaycan Ordusunun bu nailiyyətləri bizim əsgərlərimizin canı, qanı bahasına əldə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə qeyd etdiyi kimi “Vətənə, torpağa, xalqa məhəbbətin və hədsiz sədaqətin ifadəsi olan milli hisslərə əsaslanan vətənpərvərlik hissləri orta məktəb yaşlarından başlayaraq, hər bir azərbaycanlı gəncin sonrakı həyatında onların, yeni yaranıb, qurulub formalaşmaqda olan və döyüş hazırlığı gündən-günə möhkəmlənən Milli Ordumuzun yeni quruculuğunda təməl daşı kimi böyük əhəmiyyət kəsb edir. Müstəqillik illərində Azərbaycan Ordusunun inkişaf edib, nailiyyətlər əldə etməsi nəyin ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçularında, eyni zamanda orta və ali məktəblərdə, bir sözlə Azərbaycan xalqının həyatında hərbi vətənpərvərlik tərbiyəsinin yeni məna və çalarların daha da dərinləşib möhkəmlənməsində əhəmiyyət kəsb etməkdədir”. (Süleymanov 2020: 11)

**Problemin aktuallığı:** Ümumtəhsil müəssisələrində məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində tədris olunan Azərbaycan Ordusunun nailiyyətlərinin işıqlandırılması mühüm əhəmiyyət kəsb edir. Müstəqillik illərində qazanılan nailiyyətlər Ulu öndər Heydər Əliyevin və Ali Baş Komandan cənab İlham Əliyevin simasında öz əksini tapması vacib hal hesab olunur.

**Problemin elmi yeniliyi:** Məqalənin elmi yeniliyi müstəqillik illərində Azərbaycan Ordusunun qazandığı nailiyyətlərin məktəblilərin hərbi bilik, bacarıqlarının və hərbi vətənpərvərlik hisslərinin formalaşmasına imkan yaradır.

**Problemin praktik əhəmiyyəti:** Məqalədən ümumtəhsil və ali təhsil müəssisələrinin müəllim, tələbə və şagirdləri istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Qurbani, A.. Heydər Əliyev və Azərbaycan Ordusu. – Bakı: Əbilov, Zeynalov və oğulları, 2002. – 420 s.
2. Cabbarlı, Ə. Heydər Əliyev və Naxçıvanda ordu quruculuğu. – Naxçıvan: Əcəmi, – 2016. – s. 240
3. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir. XV cild / H.Ə. Əliyev. – Bakı: Azərnəşr, – 2005. – 528 s.
4. Heydər Əliyev və Azərbaycan məktəblilərin gözü ilə. – Bakı: Gənclik, – 1998.
5. Əsgərov İ.B. Hərbi vətənpərvərlik tərbiyəsinin əsasları. – Bakı, 2000. – s. 152
6. İsrafil bəy. “Azərbaycan Ordusu barədə xatirələr” məqalələr toplusu
7. Süleymanov, M. Azərbaycan Ordusunun tarixi. IV cild. / M. Süleymanov. – Bakı: Maarif, – 2018. – 728 s.
8. Süleymanov, M. Azərbaycan ordusunun tarixi. V cild (1991-1917) illər / M. Süleymanov. – Bakı: Maarif, – 2019. – 784 s.
9. Süleymanov, M. Tarixi zəfər İlham Əliyevin ordu quruculuğu siyasətinin məntiqi nəticəsidir. Hərbi And. – 2020. 22 may. – s.12-13.


**E-mail:** pervizallahverdiyev06@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **T.F. Xəlilov,**
*ped.ü.fəls.dok., dos.* **M.K. Əhmədova**
**Redaksiyaya daxil olub:** 25.12.2023.